# Qərbin məkri Ermənistanı ağır duruma salacaq

**"ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçirilməsi planlaşdırılan birgə konfrans indiyə qədər bəzi hallarda üstüörtülü saxlanılan qərəzli siyasətin açıq şəkildə nümayişidir. Faktiki olaraq, bu konfrans hərbi siyasi paktın yaradılması deməkdir. Bu paktda aparıcı güc ABŞ və ikinci güc Avropa İttifaqıdırsa, həyata keçirilməsində əsas vasitə isə Ermənistandır".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat söyləyib ki, bu üçlüyün konkret hədəfi Cənubi Qafqazı yenidən qarışdırmaqdan ibarətdir: "ABŞ və Avropa İttifaqı Ermənistanı ölkəmizə qarşı silahlandırır, revanşist meyilləri gücləndirirlər. Açıq söyləmək lazımdır ki, Azərbaycanın bütün ərazilərində dövlət suverenliyini tam bərqərar etməsi təkcə işğalçı Ermənistan üzərində çalınan zəfər deyil. Bu, eyni zamanda Ermənistanın havadarları üzərində də qazanılan qələbə olduğundan onlar Azərbaycanın zəfərini qəbul edə bilmirlər. Çünki Azərbaycanın şanlı zəfəri uzun əsrlərdən bəri yürüdülən siyasəti darmadağın edib".

Deputat qeyd edib ki, hərbi paktın yaradılmasında digər məqsəd Rusiyanı Qafqazdan çıxarmaq, üçüncü ölkəni və ya ölkələr qrupunu bu regiona gətirməkdir: "Paktın yaradılması Ermənistanın əli ilə Rusiyanı parçalamaq cəhdi kimi də xarakterizə edilə bilər. Həmçinin konfransın bir məqsədi də Rusiya-Azərbaycan münasibətlərini pozmaqdır. Bu gün Qərbdəki mərkəzlərin başlıca məqsədlərindən birinin qonşu dövlətlərlə münasibətləri korlamaqla yeni cəbhə açmaq olduğunu nəzərə alsaq, aydın olur ki, bu heç də təsadüfi deyil".

Musa Qasımlı vurğulayıb ki, Azərbaycanın yürütdüyü müstəqil xarici siyasət üçüncü dövlətə və ya dövlətlər qrupuna qarşı yönəlməyib, milli və dövlət maraqlarına xidmət edir: "Belə olan halda ABŞ və Avropa İttifaqının Ermənistanın əli ilə Qafqazda ikinci cəbhə açmaq cəhdləri çox təhlükəlidir. Bu, böyük problemlər yarada və Ermənistan üçün ağır nəticələr verə bilər. Əgər iddia etdikləri kimi, doğrudan da, ABŞ və Aİ Cənubi Qafqazda sülhün bərpasını istəyirlərsə, o zaman gerçəklikləri qəbul etməli və revanşistləri qızışdırmamalıdırlar. Yox, əgər regionda bundan sonra hər hansı bir gərginlik yaranarsa və ya terrora cəhd edilərsə, bunun təşkilatçılarının ABŞ və Avropa İttifaqı, həyata keçirəninin isə Ermənistan olacağına şübhə qalmayacaq. Nəzərə almaq lazımdır ki, Ermənistanda dövlət qurumları terror təşkilatları ilə bərabər hərəkət edirlər".

Deputat yekunda Azərbaycanın ABŞ və Avropa İttifaqı ölkələri ilə mehriban münasibətlər qurmaqda maraqlı olduğunu bildirib. Müsahibimiz qeyd edib ki, regionun gələcəyi qarşıdurmalarda və müharibələrdə deyil, sülhdə, əmin-amanlıqdadır: "Azərbaycanın mövqeyi aydındır. Dövlətimiz Ermənistanla münasibətləri normallaşdırmaqdan ötrü sülh sazişinin imzalanmasına çalışır, yeni əməkdaşlıq səhifəsi açır. Lakin Ermənistan hökuməti anlamaq istəmir ki, tərəfimizdən təqdim edilən sülh və əməkdaşlıq təklifi erməni xalqının da maraqlarına uyğundur".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 29 mart, № 64.- S.5.